AZƏRBAYCAN RESPUBLİKASININ
İQTİSADİYYAT NAZİRLİYİ YANINDA
DÖVLƏT VERGİ XİDMƏTİ

# KOMMERSİYA QURUMLARININ DÖVLƏT QEYDİYYATINA ALINMASI

BAKI – 2024

- **Kommersiya hüquqi şəxslər**, habelə qeyri-rezidentin Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq yaradılmış filialları və daimi nümayəndəlikləri sahibkarlıq fəaliyyətinə başladığı günədək olduğu yer (hüquqi ünvan) üzrə dövlət qeydiyyatına alınmaq üçün vergi orqanına müraciət etməlidirlər.

## Qeydiyyatın formaları

- **elektron formada** (yenidən təşkil nəticəsində yaranma halları və təhsil müəssisələri istisna olmaqla məhdud məsuliyyətli cəmiyyətlər üçün) new.e-taxes.gov.az və ya www.e-gov.az portalları vasitəsilə:
  - Gücləndirilmiş elektron imza ilə
  - Mobil nömrə və FİN kodla

- **kağız daşıyıcıda** poçt vasitəsi ilə və ya ərazi prinsipi nəzərə alınmaqla Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidmətinin Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı şöbəsinə, ərazi vergi orqanlarının inzibati binalarında yerləşən vergi ödəyicilərinə xidmət mərkəzlərinə (maliyyə-sənaye qrupları, banklar, investisiya fondları, sığorta və auditor təşkilatları istisna olmaqla), "ASAN Xidmət" mərkəzlərinə və KOB evlərinə müraciət edilməklə həyata keçirə bilər.

**Qeyd 1:** Rezidentlərə elektron ticarət qaydasında işlərin və xidmətlərin təqdim edilməsindən gəlir əldə edən internet informasiya ehtiyatı vasitəsilə elektron ticarəti həyata keçirən qeyri-rezidentin elektron qaydada vergi uçotuna alınması, yenidən uçota alınması və uçotdan çıxarılması qaydası Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

**Qeyd 2:** “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən hüquqi şəxsin qeydiyyata alındığı gün Vergi Məcəlləsinə əsasən onun elektron kabineti avtomatik aktivləşdirilir və vergi orqanı tərəfindən bütün sənədlər və məktublar elektron kabinetə göndərilir. Elektron kabinetə yalnız gücləndirilmiş elektron imzadan istifadə etməklə daxil olmaq mümkündür.

## Qeydiyyata alınmaq üçün tələb olunanlar

- **Elektron formada ərizəni təqdim etmək üçün**
  - Gücləndirilmiş elektron imza (http://asanimza.az) və ya **elektron imza** (https://token.sima.az) ilə adi elektron dövlət qeydiyyatı zamanı təsisçinin tərtib etdiyi nizamnamənin seçilməsi halında nizamnamə
  - **Mobil nömrə və FİN kodla qeydiyyat zamanı**
    - Müraciət edən şəxsin özünə məxsus olan mobil nömrə
    - Şəxsiyyət vəsiqəsində qeyd edilən FİN kod
- **Kağız daşıyıcıda müraciət etdikdə**
  - notariat qaydasında təsdiq olunmuş “Kommersiya qurumunun dövlət qeydiyyatı haqqında ərizə”
  - “Kommersiya qurumunun dövlət qeydiyyatı haqqında ərizəyə 1 nömrəli əlavə”
  - təsisçi fiziki şəxsin (şəxslərin) şəxsiyyət vəsiqələrinin surəti
  - “Kommersiya qurumunun dövlət qeydiyyatı haqqında ərizəyə 2 nömrəli əlavə”

- təsisçi hüquqi şəxsin (şəxslərin) dövlət qeydiyyatı haqqında şəhadətnamələrinin (dövlət reyestrindən çıxarışların) və nizamnamələrinin notariat qaydasında təsdiq olunmuş surəti (təsis sənədləri elektron kabinetə göndərilənlər istisna olmaqla)
- qurumun təsisçisi (təsisçiləri) və ya səlahiyyətli nümayəndəsi tərəfindən təsdiq edilmiş nizamnaməsi
- qurumun təsis edilməsi, nizamnaməsinin təsdiq edilməsi və idarəetmə orqanlarının formalaşdırılması haqqında qərarlar
- təsisçi xarici hüquqi şəxs olduqda, onun xarici ölkədə qeydiyyatını təsdiq edən sənədlər – qeydiyyat şəhadətnaməsinin (reyestrdən çıxarışın) və digər sənədlərin notariat qaydasında təsdiq olunmuş surəti (leqallaşdırılmaqla (xarici rəsmi sənədlərin leqallaşdırılması tələbini ləğv edən sənədlər, o cümlədən 1961-ci il tarixli Haaqa Konvensiyası nəzərə alınaraq)
- “Müşahidə şurasının üzvləri barədə məlumat” (müşahidə şurası seçilmişdirsə (şəxsiyyət vəsiqəsinin surətləri əlavə edilməklə))
- “Xüsusi vergi rejiminin tətbiqi barədə məlumat” (xüsusi vergi rejimi ilə fəaliyyət göstəriləcəksə)
- nizamnaməyə Təhsil Nazirliyinin rəyi (özəl təhsil müəssisəsi yaradıldıqda)
- qanuni təmsilçinin şəxsiyyətini təsdiq edən sənədin surəti
- dövlət rüsumu bankların müvafiq tətbiqi vasitəsilə ödənilir
- məhdud məsuliyyətli cəmiyyətin nizamnaməsində nizamnamə kapitalının ödənilməsinin müəyyən müddətdə şərtləndirildiyi hallar istisna olmaqla nizamnamə kapitalının ödənilməsini təsdiq edən sənəd (bank qəbzi, auditor rəyi və s.)
- nizamnamə kapitalına pul formasında ödənilməyən əmlakın qiymətləndirilməsi haqqında müstəqil auditor rəyi
- ərizə ilə müraciət edənin şəxsiyyət vəsiqəsi

- etibarnamə (ərizə vəkil olunan şəxs tərəfindən imzalandıqda)
- bank, sığorta, maliyyə-sənaye qrupu yaradıldıqda müvafiq olaraq Mərkəzi Bankın, Maliyyə Nazirliyinin və İqtisadiyyat Nazirliyinin müvafiq orqanının ilkin razılığını təsdiq edən sənəd
- KOB klaster şirkəti qeydiyyata alındıqda Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin məktubu
- idarəçiliyində olmayan, lakin dövlət payı olan hüquqi şəxslərə dair müvafiq icra hakimiyyəti orqanı tərəfindən rəy

## Qeydiyyata alınma müddətləri və qeydiyyat sənədlərinin verilməsi

- **Elektron** qeydiyyat **1 iş günü ərzində** həyata keçirilir və vergi ödəyicisinin elektron kabinetinə “Kommersiya qurumunun dövlət qeydiyyatı haqqında şəhadətnamə”, nizamnamə və Kommersiya qurumunun dövlət reyestrindən çıxarış göndərilməklə kağız daşıyıcıda qeydiyyat orqanından götürülməsinə ehtiyac yaranmır. Belə ki, elektron kabinetə göndərilmiş e-qeydiyyat sənədləri rəsmi tanınır və banklar, notariuslar və digər dövlət orqanları bu sənədlərdən onlayn rejimdə istifadə edə bilərlər.
- Ərizə **kağız** daşıyıcıda təqdim edildikdə, qeydiyyata alınma **2 iş günü** ərzində həyata keçirilir və vergi ödəyicisinin elektron kabinetinə “Kommersiya qurumunun dövlət qeydiyyatı haqqında şəhadətnamə”, nizamnamənin bir nüsxəsi və Kommersiya qurumunun dövlət reyestrindən çıxarış göndərilir.
    - Kommersiya hüquqi şəxslərinə, xarici kommersiya hüquqi şəxsinin nümayəndəlik və filiallarına verilən dövlət qeydiyyatı haqqında şəhadətnamə eyni zamanda vergi ödəyicisinin vergi uçotuna alınmasını təsdiq edən şəhadətnamə hesab edilir.

## Vergitutma sistemləri barədə

Vergitutmanın ümumi əsasları, vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydaları, vergi ödəyicilərinin və vergi orqanlarının hüquq və vəzifələri, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət və digər məsələlər Vergi Məcəlləsi (https://www.e-qanun.az/framework/46948) ilə tənzimlənir.

Seçəcəyiniz fəaliyyət növündən və istəyinizdən asılı olaraq əsasən aşağıdakı, lakin bunlarla məhdudlaşdırılmayan vergitutma sistemlərindən birini tətbiq edəcəksiniz və onlara uyğun müvafiq vergiləri bəyan edib dövlət büdcəsinə ödəyəcəksiniz:

- Mənfəət vergisi

və ya

- Əlavə Dəyər Vergisi və Mənfəət vergisi

və ya

- Sadələşdirilmiş vergi

Qeyd olunan vergitutma sistemləri və cəlb edilə biləcəyiniz digər vergilər barədə daha geniş məlumatı **www.taxes.gov.az** internet saytından və müvafiq bukletlərdən əldə edə bilərsiniz.

## Lisenziyalar barədə

Bəzi fəaliyyət növlərinin həyata keçirilməsinə lisenziya tələb olunur. Lisenziya tələb olunan fəaliyyət növləri və müraciət etmə qaydası ilə www.lisenziya.gov.az internet saytı və "İqtisadi fəaliyyət növləri üzrə vergi münasibətlərinin vahid standartları" (https://www.taxes.gov.az/az/page/vahid-standartlar) vasitəsilə tanış ola bilərsiniz.

- Lisenziya olmadan lisenziya tələb olunan fəaliyyət növü ilə məşğul olan vergi ödəyicisi inzibati və (və ya) cinayət məsuliyyətinə cəlb oluna bilər.

## Mühasibat uçotu barədə

Mühasibat uçotunu düzgün aparmalısınız. Mühasibat uçotu ilə bağlı ətraflı məlumatı Maliyyə Nazirliyinin internet saytından (http://www.maliyye.gov.az/static/13/muhasibat-ucotu) əldə edə bilərsiniz.

- Mühasibat uçotu düzgün aparılmadığı halda vergi ödəyicisi maliyyə sanksiyalarına və əlavə vergi hesablamalarına məruz qala bilər.

## Təsərrüfat subyektləri barədə

Fəaliyyətinizi təsərrüfat subyekt(lər)ində (obyekt(lər)ində) həyata keçirməli olduğunuz halda həmin təsərrüfat subyekt(lər)i (obyekt(lər)i) vergi orqanlarında uçota alınmalıdır.  Təsərrüfat subyekti (obyekti) tələb olunan fəaliyyət növləri və müraciət etmə qaydası ilə “Vergi ödəyicilərinə göstərilən xidmətlərin vahid standartları” (https://www.taxes.gov.az/az/page/vergi-odeyicilerinegosterilen-xidmetlerin-vahid-standartlari) və “İqtisadi fəaliyyət növləri üzrə vergi münasibətlərinin vahid standartları” (https://www.taxes.gov.az/az/page/vahid-standartlar) vasitəsi ilə tanış ola bilərsiniz.

- Vergi ödəyicisinin iki və ya daha çox təsərrüfat subyekti (obyekti) olduqda həmin vergi ödəyicisi iqtisadi maraqlar mərkəzinin yerləşdiyi ünvan üzrə yenidən uçota alınır.
- Təsərrüfat subyektiniz (obyektiniz) fiziki şəxsdən icarəyə götürüləcəyi halda Vergi Məcəlləsinə uyğun olaraq icarə haqqından ödəmə mənbəyində vergini tutmalı, bəyan etməli və dövlət büdcəsinə ödəməli olacaqsınız.
- Təsərrüfat subyektinin (obyektinin) vergi orqanlarında uçota alınmamasına və (və ya) təsərrüfat subyektinin (obyektinin) sahəsi barədə təhrif olunmuş məlumatın verilməsinə görə vergi ödəyicilərinə maliyyə sanksiyaları tətbiq edilir.

## Nəzarət-kassa aparatları (e-kassa) və POS-terminallar barədə

Hesablaşmaları nəzarət-kassa aparatları və (və ya) POS-terminallar vasitəsi ilə həyata keçirməli olduğunuz halda həmin avadanlıqlar vergi orqanlarında uçota alınmalıdır. Nəzarət-kassa aparatlarının və POS-terminalların vergi orqanlarında uçota alınması müvafiq olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 1 avqust tarixli 338 nömrəli Qərarı ilə təsdiq edilmiş "Nəzarət-kassa aparatlarının istismarı Qaydaları" və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 4 oktyabr tarixli 219 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində POS-terminalların quraşdırılması, istifadəsi və tətbiqi Qaydaları" və "POS-terminallar quraşdırılacaq obyektlərin müəyyənləşdirilməsi meyarları" ilə tənzimlənir. Həmçinin, Vergi Məcəlləsinin 16.1.8-ci maddəsində hesablaşmaları nəzarət-kassa aparatları vasitəsi ilə həyata keçirilməsi tələb olunan fəaliyyət sahələri öz əksini tapır. Eyni zamanda, nəzarət-kassa aparatları və POS-terminal tələb olunan fəaliyyət növləri və müraciət etmə qaydası ilə "Vergi ödəyicilərinə göstərilən xidmətlərin vahid standartları" (https://www.taxes.gov.az/az/page/vergi-odeyicilerinegosterilen-xidmetlerin-vahid-standartlari) və "İqtisadi fəaliyyət növləri üzrə vergi münasibətlərinin vahid standartları" (https://www.taxes.gov.az/az/page/vahid-standartlar) vasitəsi ilə də tanış ola bilərsiniz.

- e-kassanı və (və ya) POS-terminalı tətbiq etməli olan, lakin etməyən və ya qanunvericiliyə uyğun olmayan qaydada tətbiq edən vergi ödəyicilərinə maliyyə sanksiyaları tətbiq edilir.

## Muzdlu işçilərin cəlb edilməsi barədə

Cəlb olunacaq muzdlu işçilərin əmək müqavilələrini https://www.e-gov.az/ portalı vasitəsi ilə qeydiyyata almalısınız.

- **Elektron qeydiyyat zamanı** "Hüquqi şəxsin elektron qeydiyyatı" ekranına əmək müqavilələrinin məlumatları daxil edildikdə bu məlumatlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin informasiya sisteminə göndərilir. Bu zaman əmək müqaviləsi bildirişlərinin elektron imzalanması tələb olunmur.
- Müvafiq qaydada əmək müqavilələri hüquqi qüvvəyə minmədən işçiləri cəlb edən vergi ödəyiciləri məsuliyyətə cəlb olunurlar.

## Sığorta haqları barədə

Sığorta haqlarını vaxtlı-vaxtında hesablayıb ödəməlisiniz. Bu barədə ətraflı məlumatı “Muzdlu işlə əlaqədar tutulan gəlir vergisi, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları” adlı bukletlərdən əldə edə bilərsiniz.

## Qeydiyyat və uçot məlumatlarının dəyişdirilməsi barədə

“Kommersiya qurumunun dövlət qeydiyyatı haqqında ərizə”də olan məlumatlarda hər hansı dəyişiklik baş verdikdə, dəyişiklik baş verən gündən 40 gün müddətində vergi orqanına məlumat verilməlidir.

- Qeydiyyat və (və ya) uçot məlumatlarını vaxtında dəyişdirməyən vergi ödəyicilərinə maliyyə sanksiyaları və (və ya) inzibati məsuliyyət tədbirləri tətbiq edilir.

**Qeyd:** Kommersiya qurumları və publik hüquqi şəxslər İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətində dövlət qeydiyyatına alındıqda və ya təsis sənədlərində edilmiş dəyişikliklərin və qeydə alınmış faktların sonrakı dəyişikliyi dövlət qeydiyyatına alındığı gün qeydiyyat sənədləri (dövlət qeydiyyatı haqqında şəhadətnamə, dövlət reyestrindən çıxarış, nizamnamə və ya nizamnaməyə dəyişiklik) hüquqi şəxsin elektron kabinetinə göndərilir.

# MALİYYƏ SANKSİYALARI, FAİZLƏR VƏ DİGƏR MƏSULİYYƏT TƏDBİRLƏRİ BARƏDƏ

Vergi və sığorta qanunvericiliyinin pozulması hallarına görə tətbiq olunan maliyyə sanksiyaları və digər məsuliyyət tədbirləri barədə məlumatı "Maliyyə sanksiyaları, faizlər və digər məsuliyyət tədbirləri barədə Yaddaş" adlı bukletdən əldə edə bilərsiniz.

VERGİLƏRƏ AİD NƏŞRLƏR

195

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

**www.taxes.gov.az**